# Nur yağsın



**Eyvaz GÜLƏLİYEV,**
*Qusar rayonu Cibir kənd orta məktəbinin riyaziyyat müəllimi*

(Həmyerlim şəhid Elçin Şəfiyevin ölməz ruhuna)

Səs düşürdü Cibir kəndə
Dönəndə Elçin,
Gülərüzlü o qəhrəman
Örnək bu elçün.

İstiqanlı, xoş qılıqlı,
Həm də mehriban;
Dağ boydadır qartal kimi
Çevik o insan...

Qopdu zülmət bir gecədə
Kənddə hay-haray:
Ürək susdu, yer yarıldı,
Göy uçdu lay-lay.

Dondum yayın istisində,
Artdı üşütməm,
Belə ağrı, üzüntüdən
Çalxandı Vətən.

Gətiriblər Cibir kəndə
Məğrur Elçini,
Yıxdı namərd gülləleri
Cəsur Elçini.

Xain yağı aldı onun
Qəlbini nişan,
Qaya boyda pəhləvana
Qıyarmış insan?..

Sındı beli atanın da
Dağ boyda dərdə,
Anasını göz yaşları
Boğur qəhərdə.

- Qismətinə belə acı
Ulaşdı, Elçin!
Şəhid kimi adın ərzi
Dolaşdı, Elçin!

Qanın axan o torpağa
Qurban bu canım,
Yoxsan deyə qürbət oldu
Kənddə dörd yanım.

Hər düşməni yuvasında
Öz kini boğsun,
Şəhidimin məzarına
Göydən nur doğsun!..

# Aşiqəm

Ürəkləri söz-söhbətlə dopdolu,
Danışmağı bacarana aşiqəm.
Yerişini, duruşunu qoruyub,
Həştad, yüzü aşırana aşiqəm.

Göy tağında boyunbağı yeddidir,
Göy qatına od dağımdan köz ötür,
Dünya böyük, sularında iz itir,
Gözü mənsiz yaşarana aşiqəm.

Dərbənddəydim... bir gimgədə dayandım,
Ana dilin işığına boyandım,
Neçə dildə - bir Mehmanı bəyəndim, -
Təbi coşub-daşırana aşiqəm.

Yaman daldım gözəlliyin dadına,
Uzaq gedər minən eşqin atına.
Qucaq açıb, məni salan yadına
Öz elimlə güzərana aşiqəm.

Azərbaycan müəllimi.- 2019.- 27 dekabr.- S.14.